AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

14 AVQUST 2022-ci il BAZAR № 172 (7354) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*




# Qüdrətli Ordumuz düşmənə göz dağıdır

***İkinci Qarabağ müharibəsindən iki ilə yaxın vaxt keçir. Öz tarixi torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü təmin edən Azərbaycan bu müddət ərzində bölgədə sülhə, təhlükəsizliyə nail olmasına, regionda ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin, tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə mühüm töhfələr vermişdir. Azərbaycanın yaratdığı reallıqlar regionda enerji təhlükəsizliyinin təmin edilməsinə, nəqliyyat-kommunikasiya, logistika infrastruktrunun inkişafına mühüm təsir göstərir.***

Bu gün regionda söz sahibi olan, nəhəng layihələrin reallaşmasında mövqeyi xüsusi olaraq nəzərə alınan Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsində Azərbaycanın qalib olmasına baxmayaraq, müharibənin bitdiyi ilk vaxtlardan düşmən dövlətə keçmiş səhifələri çevirərək iki ölkə arasında əlaqələr qurmaq, xalqların qarşılıqlı mehribanlıq şəraitində qonşuluq münasibətində yaşaması üçün sülhə gəlmək təklifi etmişdir. Təəssüf ki, Ermənistan hələ də bu istiqamətdə heç bir real addım atmayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən üçtərəfli görüşlərdə Azərbaycanın maraqları və eyni zamanda, bölgənin sülh və əmin-amanlıq şəraitində inkişafının təmin olunması məqsədilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılması, Zəngəzur dəhlizinin açılması, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası və s. humanitar xarakterli məsələlər ətrafında geniş fikir mübadiləsi aparılsa da, Ermənistan tərəfi qeyri-konstruktivlik nümayiş etdirərək bu günə qədər sülhə, əmin-amanlığa xidmət edən heç bir addım atmamışdır. Azərbaycanın irəli sürdüyü dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı və müstəqilliyinin qarşılıqlı şəkildə tanınması, dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi, dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin maddələrinə uyğun olmayan digər hallardan çəkinmək, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, nəqliyyat və kommunikasiyaların açılışı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması kimi beynəlxalq hüququn fundamental baza prinsipləri əsasında 5 maddədən ibarət sülh təklifi hələ də imzalanmamışdır.

Əksinə, hələ də Azərbaycanın qələbəsini qəbul edə bilməyən, rəzil vəziyyətə düşən düşmən ölkə pis niyyətlərindən əl çəkmir, öz qanunsuz silahlı birləşmələri ilə ölkəmizin sərhədində terror-təxribat hadisəsi törədir, mövqelərimizi atəşə tutur. Sözsüz ki, düşmən hər bir əməlinə görə layiqli cavabını alır, lakin bu əməliyyatlarda təbii ki, itkilərimiz də olur. Elə bu günlərdə - avqust ayının 3-də Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Qarabağda vəziyyəti gərginləşdirmək məqsədilə Laçın rayonu istiqamətində yerləşən Azərbaycan Ordusu bölmələrinin mövqelərini intensiv atəşə tutmuş, Ermənistanın qanunsuz silahlı qüvvələrinin həyata keçirdiyi terror-təxribatları nəticəsində Azərbaycan ordusunun bir əsgəri şəhid olmuşdur. Bu barədə avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsi zamanı demişdir: "Biz dərhal "Qisas" əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq. Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatı cəza tədbiri idi. Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq və heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz. Biz öz torpağımızda istənilən əməliyyatı istənilən zaman apara bilərik".

(davamı 3-cü səhifədə)

**Döyüş hazırlığı**



# Qüdrətli Ordumuz düşmənə göz dağıdır



(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidenti 30 il bundan əvvəl də var gücü ilə müharibənin olmamasına, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasına çalışsa da, heç vaxt öz xalqının müqəddəratını düşünməyən Ermənistan buna hər vəchlə mane olmuşdur. Son aqibətindən də nəticə çıxarmayaraq bəd əməllərindən əl çəkməyən mənfur düşmən anlamır ki, müharibənin bitməsindən iki il sonra da Azərbaycana qarşı ərazi iddialarından əl çəkməməsi Ermənistanın birdəfəlik sonuna aparıb çıxara bilər. Azərbaycan Ordusunun bu günlərdə həyata keçirdiyi "Qisas" əməliyyatı onlara dərs olmalıdır. Çünki bu əməliyyat ölkə başçımızın da qeyd etdiyi kimi, gücümüzün yerində olduğunu, istədiyimiz vaxtda öz torpaqlarımızda istədiyimiz əməliyyatı keçirə biləcəyimizi bir daha göstərdi. Düşmən ölkə yəqin ki, bu qısamüddətli "Qisas" əməliyyatından sonra anladı ki, nəyi, necə və nə vaxt etməyi çox yaxşı bilən Azərbaycan Prezidenti Ali Baş Komandan kimi də qarşısına qoyduğu bütün vəzifələri necə istəyibsə, elə də edib və bundan sonra da belə olacaq. Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibə verən ölkə başçımız demişdir ki, "Bir daha demək istəyirəm, əgər yenə də buna oxşar təxribat təkrarlanarsa, cavab daha da sərt olacaq, daha da peşman olacaqlar, daha da gur səslə imdad diləyəcəklər. Amma yenə də deyirəm, bizim niyyətimiz yeni müharibə başlamaq deyil. Kifayətdir. Biz istədiyimizə nail olmuşuq. Biz istəyirik ki, erməni silahlı birləşmələri Qarabağı birdəfəlik tərk etsin. Bu, Ermənistanın öhdəliyidir, 10 noyabr 2020-ci ildə Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında təsbit edilib və biz buna nail olacağıq və nail oluruq".

Bəli, Azərbaycan bölgədə sülh, əmin-amanlıq istəyir və buna nail olmaq üçün də məqsədyönlü, düşünülmüş siyasət yürüdür. Bu siyasətin nəticəsidir ki, Azərbaycan bu gün regionda söz sahibidir. Azərbaycan dövlətinin bölgədə nüfuzu gündən-günə artır. Bunu bütün dünya görür və qəbul edir. Ermənistan da gec və ya tez bu reallığı qəbul etməlidir. Çünki onun bundan başqa yolu yoxdur. Qəbul etməlidilər ki, Qarabağ Azərbaycan torpağıdır, onun ayrılmaz tərkib hissəsidir həm iqtisadi, həm coğrafi, həm nəqliyyat nöqteyi-nəzərdən. Onlar birmənalı olaraq dərk etməlidilər ki, Azərbaycan torpağında - Qarabağda yaşayan heç bir erməninin nə xüsusi imtiyazı, nə statusu, nə də müstəqilliyi olacaq. Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycan vətəndaşları necə, onlar da elə. Azərbaycan vətəndaşlarının hüquqları necə qorunursa, onların da elə. Azərbaycanda yaşayan xalqların hüquqları necə qorunursa, onların da elə. Ancaq budur yol".

Bütün bunlar bir daha göstərir ki, İkinci Qarabağ müharibəsində təslim olan və bütün dünyanın gözü qarşısında kapitulyasiya aktı imzalayan Ermənistan üçtərəfli bəyanatdan irəli gələn, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcburdur.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**